Mədəniyyət və Yaradıcılıq

Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı

# AZƏRBAYCANDA DİZAYN VƏ İNNOVASİYA MƏRKƏZİNİN YARADILMASI

Mədəniyyət və yaradıcılıq üçün qısa analitik icmal Aİ – Şərq Tərəfdaşlığı Proqramı

№3

Proqram Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

15/02/2017

**Nadir Cəfərov**
**Leyla Ağazadə**



# Qısa icmal

Son zamanlar Azərbaycanda iqtisadiyyatın dirçəlişini təmin edən sahələrdən biri olan sənaye sektorunun payı artmaqdadır.

Azərbaycanda sənayenin inkişafının bir nəticəsi də yeni məhsulların dizayn edilməsi ilə əlaqədar tələbin artmasıdır. Bu, dizaynerlər, xüsusən də yaradıcı gənclər üçün iş imkanlarının yaradılmasına gətirib çıxarıb.

Bu müvəffəqiyyətə baxmayaraq, hazırda Azərbaycanda sənaye sahəsi ilə təhsil müəssisələri arasında dizayn ixtisası üzrə məzunlar baxımından təklif və tələb arasında uyğunsuzluq mövcuddur. Ölkədə hər il 200-dən az dizayn üzrə məzun hazırlanır.

Ancaq Azərbaycanda dizayn şirkətləri dizayn sahəsində universiteti yeni bitirmiş işçilərlə müqayisədə iş təcrübəsi olan işçilərə üstünlük verir.

Azərbaycanda dizayn mərkəzinin olmaması mərkəzləşdirilmiş məlumat bazası sisteminin, eləcə də bu sahədə fəaliyyət göstərən təşkilatlar (institutlar, həmkarlar ittifaqları, assosiasiyalar, şirkətlər və s.) arasında əməkdaşlığın olmaması ilə nəticələnə bilər. Dizayn sahəsindəki yenilikləri tədqiq edəcək institutun yaradılması bu problemləri aradan qaldıra bilər.

Azərbaycanda Dizayn və İnnovasiya Mərkəzi necə yaradıla bilər? Beş mümkün variant mövcuddur.

- Memarlıq və İncəsənət İnstitutu daxilində dizayn bölməsinin yaradılması.
- Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsi daxilində Dizayn və İnnovasiya Mərkəzinin yaradılması.
- Azərbaycan Dizaynerlər İttifaqı (ADİ) qeyri-hökumət təşkilatı kimi yenidən təşkil edilə və təşkilat daxilində Dizayn və İnnovasiya Mərkəzi yaradıla bilər.
- Azərbaycan Dövlət Rəssamlıq Akademiyası daxilində Dizayn və İnnovasiya Mərkəzinin yaradılması.
- Dizayn və İnnovasiya Mərkəzinin müstəqil, özünü maliyyələşdirən təşkilat kimi yaradılması.



# Giriş

Müstəqil Azərbaycan Respublikası 1992-ci ildən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) üzv ölkələri ilə geyim, qida, sellüloza, dəri, ayaqqabı, rezin və plastik, kompüterlər, elektron əşyalar və optik məhsullar, maşın və avadanlıq, mebel, dərman preparatları, çap materialları və parça sənayeləri daxil olmaqla bir sıra sənaye sahələri üzrə ticarət müqavilələri imzalayıb. Ölkə eyni zamanda 1995-2015-ci il periodu üçün uzunmüddətli maddi aktivlər üzrə investisiya müqavilələri imzalayıb. Qeyd edilən sahələr sürətlə inkişaf etdiyi üçün bu investisiyalar müvəffəqiyyətlə nəticələnib.

Sənayenin bu cür inkişafının bir nəticəsi də yeni məhsulların dizayn edilməsi ilə əlaqədar tələbin artmasıdır. Bu, dizaynerlər, xüsusən də yaradıcı gənclər üçün iş imkanlarının yaradılmasına gətirib çıxarıb. Eyni zamanda yaradıcı dizayn sahəsinə xas cəlbedici əmək haqqları və biznes uğuru onu gənc nəsil arasında sevimli karyera seçiminə çevirib. Bu, gənclərin dizaynla daha çox maraqlanmasının əsas səbəblərindən biridir.

Həmçinin müstəqilliyin əldə edilməsindən sonra təhsil almaqla əlaqədar maneələrin aradan qaldırılması və İnternetin geniş yayılması özünü ifadə etməyə can atan gənc və istedadlı dizaynerlər üçün yeni üfüqlər açıb. Məsələn, Samir Sadıxov və Rüfət İsmayıl, müvafiq olaraq, sənaye və moda dizaynı üzrə xaricdə təhsil almaq imkanı əldə etmiş tanınmış gənc Azərbaycanlı istedadlardır.


MIDDLE FLOOR
MIDDLE FLOOR

# Cari vəziyyət

Bu müvəffəqiyyətə baxmayaraq, hazırda Azərbaycanda sənaye sahəsi ilə təhsil müəssisələri arasında dizayn ixtisası üzrə məzunlar baxımından təklif və tələb arasında uyğunsuzluq mövcuddur. Ölkədə hər il 200-dən az dizayn üzrə məzun hazırlanır. Bunun səbəbi üç əsas amildir.

Birinci amil ondan ibarətdir ki, universitet və texnikomlara qəbul zamanı dizayn ixtisası üzrə yerlərin sayı məhduddur. Dövlət İmtahan Mərkəzinin (DİM) 2016-2017-ci tədris ili üçün dərc edilmiş jurnalına əsasən bu sahə üzrə tələbələr üçün cəmi 320 yer nəzərdə tutulub.

İkinci amil isə xaricdə təhsil proqramlarının hökumət üçün yüksək maliyyə yükü təşkil etməsindən ibarətdir.

Üçüncü amil isə ondan ibarətdir ki, potensialın artırılması infrastrukturu daha innovativ tədqiqat mərkəzləri, dərsliklər, dizayn tədrisi metodologiyası, tələbələr üçün istehsalat təcrübəsi, təcrübələr, eləcə də tədris kursları, seminarlar və peşə təlimləri haqqında açıq onlayn resurslar vasitəsilə möhkəmləndirilməlidir.

Nəticədə Azərbaycan ölkənin ev sahibliyi etdiyi Avroviziya (2012), Avropa Oyunları (2015), Şahmat üzrə Dünya Çempionatı (2015), Dünya Şahmat Olimpiyadası (2016) və Formula-1 (2016) kimi tədbirlərin dəstəklənməsi üçün dizayn üzrə xarici mütəxəssislərə etibar etməli olub. Bir tərəfdən, bu tədbirlər yerli dizaynerlərin beynəlxalq təcrübə qazanmasına və xarici mütəxəssislərlə tanış olmasına imkan verir, digər tərəfdən isə, bu cür peşəkarlıq və sahənin özü ölkə daxilində kifayət qədər inkişaf etdirilməyib.

Dizayn ixtisası Azərbaycanın yalnız 2 şəhərinin ali və natamam ali təhsil müəssisələrində tədris edilir (Bakı – Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Texniki Universiteti, Xəzər Universiteti və Qərb Universiteti). Gəncə-Azərbaycan Texnoloiya Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti).

DİM-nin 2016-2017-ci tədris ili üçün statistikasına əsasən:

- Dekorativ və tətbiqi incəsənət və dizayn üzrə təhsil almaq üçün 2666 namizəd müraciət edib.
- Onlardan 1945 nəfəri qabiliyyət imtahanlarına buraxılıb.
- 429 nəfər müsabiqəyə buraxılıb.
- Sonda 340 nəfər seçilib.

Onların təxminən 80 faizi hazırda dizayn, 20 faizi isə dekorativ və tətbiqi incəsənət ixtisasları üzrə təhsil alır. Hər iki ixtisas eyni DİM koduna malikdir, məlumatlar inteqrasiya edilib.

2015-2016-cı tədris ili ilə müqayisədə 2016-2017-ci ildə abituriyentlərin

sayı üç dəfə çox olub. DİM müvafiq tələb artımı ilə əlaqədar olaraq Rəssamlıq Akademiyasının dizayn fakultəsindəki yerlərin sayını 70-dən 180-ə qədər artırıb.

Abituriyentlərin digər bir qismi xaricdə təhsil almağı üstün tuturlar. Xaricdə təhsil almaq istəyən gənclərin bir hissəsi dövlət hesabına, bir hissəsi isə öz hesabına təhsil alır. Xaricdə təhsil yüksək keyfiyyətə malik olsa da, onun üçün böyük maliyyə resursları tələb edilir. Hökumət tərəfindən maliyyələşdirilən proqramlar çərçivəsində təhsil alan tələbələr tələbə təqaüdü üzrə müqavilə borc öhdəliklərini yerinə yetirmək üçün qayıdıb ölkələrində işləməlidir. Öz hesabına təhsil alan gənclər isə çox zaman xaricdə qalır, mütəxəssis kimi öz karyerasını orada davam etdirir.

Azərbaycanda interyer, moda, qrafik və sənaye dizaynı üzrə müəllimlər öz tədris proqramını hazırlayır. Tədris proqramı həm təhsil müəssisəsinin daxilində, həm də ondan kənarda mütəxəssislər tərəfindən diqqətlə yoxlanılır. Toplanmış rəylərə əsasən, təhsil müəssisəsinin elmi katibi Təhsil Nazirliyinə bu proqramın təsdiq edilməsi üçün müraciət edir. Yalnız proqram təsdiqlənəndən sonra bu proqramın həmin təhsil müəssisəsində tədrisinə icazə verilir. Bu, tamamlanması üçün iki və ya üç il tələb edilən ciddi prosesdir. Təhsil Nazirliyi dizayn üzrə mütəxəssis olan əməkdaşları olmadığı üçün tədris proqramını həm təhsil müəssisəsinin daxilindəki, həm də ondan kənardakı mütəxəssislərin rəyləri əsasında təsdiq edir.

Ancaq Azərbaycanda dizayn şirkətləri dizayn sahəsində universiteti yeni bitirmiş işçilərlə müqayisədə iş təcrübəsi olan işçilərə üstünlük verir. Dizayn ixtisası üzrə təhsil alan tələbələr təhsil aldıqları müddətdə iş təcrübəsinə buraxılmırlar. Bu, tələbələrin gələcəkdə iş tapmalarını çətinləşdirir.

Azərbaycanda dizaynerlər üçün yeganə təşkilat Azərbaycan Dizaynerlər İttifaqı (ADİ) idi. Ancaq bu təşkilat maliyyə problemləri səbəbindən 2007-ci ildə fəaliyyətini dayandırdı. Odur ki, ADİ-nin dizayn üzrə tədqiqatları yarımçıq qalıb. Dizayn üzrə araşdırma mərkəzinin olması Azərbaycanda dizayn sahəsinin inkişaf strategiyasına, rəqabətədavamlı potensialın yaradılmasına və yeniliklərin təqdim edilməsinə ən yaxşı beynəlxalq təcrübələrin tətbiq edilmə imkanına təsir göstərir.



# Həll yolu

Dünyada sənaye və interyer dizaynından rəqəmli dizayn və brendinə qədər hər bir dizayn sahəsini araşdıran bir neçə dövlət müəssisəsi və özəl müəssisə mövcuddur. Onlardan biri də Londondakı Dizayn Mərkəzidir. Bu təşkilatlar eyni zamanda bir-biri ilə əməkdaşlıq edir, təcrübələrini bölüşür, birgə məhsullar istehsal edir, həmçinin dizayn sahəsinin əhəmiyyəti ilə əlaqədar məlumatlılığı artırır. Azərbaycanda bu cür təşkilatın olmaması mərkəzləşdirilmiş məlumat bazası sisteminin, eləcə də bu sahədə fəaliyyət göstərən təşkilatlar (institutlar, həmkarlar ittifaqları, assosiasiyalar, şirkətlər və s.) arasında əməkdaşlığın olmaması ilə nəticələnə bilər. Dizayn sahəsindəki yenilikləri tədqiq edəcək institutun yaradılması bu problemləri aradan qaldıra bilər.

Azərbaycanda Dizayn və İnnovasiya Mərkəzi necə yaradıla bilər? Beş mümkün variant mövcuddur.

## 1-Cİ VARİANT

Artıq Azərbaycan Milli Elmlər Akademiyası nəzdində mövcud olan Memarlıq və İncəsənət İnstitutu daxilində dizayn bölməsinin yaradılması.

**Faydalar:** Memarlıq və İncəsənət İnstitutu və Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlıq etmək Azərbaycanın dizayn sahəsindəki qədim mədəni irsini təbliğ etmək baxımından mühüm addım ola bilər. Bu addım milli brendlərin yaradılması və dünyada təbliğ edilməsi ilə nəticələnə bilər.

**Risklər:** Memarlıq və İncəsənət İnstitutu (Mİİ) əsasən tarixi araşdırmalara üstünlük verdiyi üçün dizayn sahəsi üzrə yeni təşkilata tam uyğun olmaya bilər.

## 2-Cİ VARİANT

Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsi daxilində Dizayn və İnnovasiya Mərkəzinin yaradılması. Əsas elmi-tədqiqat mərkəzlərinin bu hökumət təşkilatının daxilində yaradılması.

**Faydalar:** Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsi daxilində Dizayn və İnnovasiya Mərkəzinin yaradılması yeni mərkəz üçün strategiyanın yaradılması işini asanlaşdıracaq və onun dünyada tanınmasını təmin edəcək.

**Risklər:** Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsində yaradılan yeni institut əsasən dizaynın elmi cəhətdən tədqiq edilməsinə diqqət yetirə bilər. Bu, yeni institutun həm nəzəri bilikləri, həm də praktikanı özündə birləşdirməli olan daha geniş fəaliyyət planını məhdudlaşdıra bilər.



## 3-CÜ VARİANT

Azərbaycan Dizaynerlər İttifaqı (ADİ) qeyri-hökumət təşkilatı kimi yenidən təşkil edilə və təşkilat daxilində Dizayn və İnnovasiya Mərkəzi yaradıla bilər.

**Faydalar:** Dizayn mərkəzinin artıq dizaynla məşğul olan təşkilat daxilində yaradılması müsbət addım ola bilər. ADİ-nin yenidən təşkili keçmiş tədqiqatlarını davam etdirmək istəyən insanları (keçmiş ittifaq üzvləri, dizayn müəllimləri, istehlakçı assosiasiyaları, gənc dizaynerlər, institutlar və başqaları) bir yerə toplaya bilər.

**Risklər:** ADİ-nin eyni adla yenidən təşkili fəaliyyət strukturu baxımından yanlış anlaşılmaya səbəb ola bilər. İnvestorlar keçmişdə uğursuzluqla üzləşmiş təşkilatı dəstəkləməyə bilərlər.

Əsas risk ADİ-nin daxilində yaradılmış Dizayn və İnnovasiya Mərkəzi üçün adekvat maliyyə mənbəyinin tapıla bilməməsi ola bilər.

## 4-CÜ VARİANT

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının daxilində Dizayn və İnnovasiya Mərkəzinin yaradılması.

**Faydalar:** Əksər müəllimlər, gənc rəssamlar və dizaynerlər Dizayn və İnnovasiya Mərkəzinin Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının daxilində yaradılmasında maraqlı ola bilər. Mərkəz tərəfindən aparılan elmi araşdırma əsasən onlar üçün faydalı olacaq. Müəllim və tələbələr nəzəri biliklərindən real iş mühitində praktiki şəkildə istifadə edəcək. Bu, eyni zamanda onları yeni gəlir mənbəyi kimi həvəsləndirəcək.

**Risklər:** Yeni yaradılmış mərkəz Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nizamnaməsini qəbul etməli ola bilər. Bu, Dizayn və İnnovasiya Mərkəzinin öz məqsədlərinə nail olmasına mane ola bilər.

Ali və natamam ali təhsil müəssisələrində, eləcə də onlayn kurslarda öz sahələrində fəaliyyət göstərməkdə olan dizaynerlərin dərs verməsi ideal haldır. Bu müəllimlər öz praktiki təcrübələrini tədqiqat əməkdaşları ilə bölüşə və bu qarşılıqlı əməkdaşlıq praktiki və nəzəri mühazirələrin keyfiyyətini artıra bilər.

## 5-Cİ VARİANT

Dizayn və İnnovasiya Mərkəzinin müstəqil, özünü maliyyələşdirən təşkilat kimi yaradılması.

**Faydalar:** Bu variant Dizayn və İnnovasiya Mərkəzinin daha sürətlə formalaşmasına imkan verəcək. Dizayn və İnnovasiya Mərkəzi müstəqil şəkildə fəaliyyət göstərməklə digər tərəfdaşları ilə də daha effektiv işləyə biləcək.

Dizayn və İnnovasiya Mərkəzinin mütəxəssisləri dizayn fakultələrində təhsil alan tələbələr üçün təcrübələrin keyfiyyətinə nəzarət etməlidir. Mütəxəssislər sifarişləri yerinə yetirə, tələbələr isə onları dəstəkləyə bilər.

Dizayn və İnnovasiya Mərkəzinin mütəxəssisləri ən yaxşı beynəlxalq təcrübə əsasında onlayn dizayn kurslarının keyfiyyətinin təmin edilməsinə nəzarət edə bilər.

**Risklər:** Mərkəzin öz-özünü maliyyələşdirən müstəqil təşkilat olması pul vəsaitlərinin axını və ya başqa maliyyə problemlərinə səbəb ola bilər. Bu, mərkəzin dizayn əsaslı tədqiqat mərkəzi olmaq yerinə daha biznes yönümlü olması ilə nəticələnə bilər.

## Hüquqi strukturundan asılı olmayaraq Dizayn və İnnovasiya Mərkəzinin fəaliyyət planına aşağıdakılar daxil olmalıdır:

1. Dizayn üzrə ən yaxşı beynəlxalq təcrübələrin və öz-özünü maliyələşdirən qabaqcıl dizayn mərkəzlərinin (assosiasiyalarının, ittifaqlarının, şirkətlərinin və.s) fəaliyyətini araşdırmaq və onların Dizayn və İnovasiya Mərkəzinin yeni faliyyətlərinə əlavə edilməsi.
2. Beynəlxalq və Avropa dizayn assosiasiyalarına, ittifaqlarına və dizayn üzrə təhsil müəssisələrinə üzv olmaq və onlarla sıx əməkdaşlıq etmək.
3. Dünyada qlobal səviyyədə sürətlə inkişaf edən dizayn nəaliyyətlərinin tədqiqi.
4. Dizayn üzrə inkişaf strategiyasının tədqiqi və təşkil olunması.
5. Dizaynın rəqabətə davamlılıq potensialını formalaşdıran amillərin tədqiqi .
6. Dizaynda innovativliyin tədbiq olunma mexanizminin tədqiqi. İnnovativlik dedikdə, yəni bu sahadə istifadə olunan ən son elmi nəaliyyətlərin tədbiq olunma mərhələlərinin sxematik quruluşunun tədqiqi nəzərdə tutulur.
7. Dünyanın ən böyük universitetlərinin dizaynla əlaqədar innovativ dərsliklərinin, təhsil planlarının, yerli dərsliklərin, tədris metodologiyalarının və proqramlarının nəzərdən keçirilməsi və eləcə də təhsil planları üçün vahid standart və modellərin hazırlanması.
8. Dizaynla əlaqədar tədris materialları və proqramların beynəlxalq təcrübə əsasında yoxlanılması üçün strukturun yaradılması.
9. Dizaynla əlaqədar dərs vəsaitlərinin Azərbaycan dilinə tərcüməsi edilməsi.
10. Xarici təhsil proqramları haqqında məlumatların toplanması, əməkdaşlıqların qurulması və prosedurların yaradılması.
11. Hər kəs üçün onlayn kursların, seminarların, peşəkar inkişaf təlimlərinin və stimullaşdırıcı müsabiqələrin təmin edilməsi üçün alternativ təhsil kimi Azərbaycan dilində veb-səhifənin, eləcə də

vahid proqramın yaradılması. Statusundan asılı olmayaraq onlayn kurslar hamı üçün açıq olmalıdır. Onlayn kurslardan istifadə ilə əlaqədar vaxt məhdudiyyəti olmamalıdır. Beləliklə, istifadəçilər onlayn kurslardan rahat formatda və öz vaxt imkanlarına uyğun yararlana bilər.

12. Dizayn və İnnovasiya Mərkəzinin ən yaxşı tədris proqramlarını təhsil müəssisələrinə tədbiq etmək üçün Təhsil Nazirliyi ilə yaxından əməkdaşlıq etmək.

13. Dizayn xidmətləri (sənaye, interyer, qrafik və moda) ilə bağlı yerli və xarici tələbatın müəyyən edilməsi və həm dövlət, həm də özəl şirkətlərlə xidmət müqavilələrin hazırlanması.

14. Dizayn və İnnovasiya Mərkəzinin fəaliyyətlərini daha geniş şəkildə təbliğ edən mobil telefon proqramının (app) yaradılması. Eyni zamanda Dizayn və İnnovasiya Mərkəzinin sosial media səhifələri də yaradıla bilər.

15. Dizaynerlərin onlayn sərgiləri və müsabiqələri daxil olmaqla Dizayn və İnnovasiya Mərkəzinin onlayn qalereyasının yaradılması.

16. Dizayn sahəsində tələbələrə təqaüd və təcrübə imkanları tapmaqda kömək etmək üçün xarici universitet və institutlarla əməkdaşlıq etmək. Həmçinin Dizayn və İnnovasiya Mərkəzinin vasitəçiliyi ilə tələbələrin mütəxəssislərin nəzarəti altında iş təcrübəsinə buraxılmasını təşkil etmək üçün, ali təhsil müəssisələri və dizayn şirkətləri (yerli və xarici) arasında müqavilələrin bağlanmasının təşkil edilməsi.

Zaman keçdikcə bu fəaliyyət planı Azərbaycanda dizayn sahəsində təkmilləşdirmələrin aparılmasına gətirib çıxara bilər.

# Tövsiyyələr

- Dizayn və İnnovasiya Mərkəzi tədrislə bağlı uğurlu tədqiqatlarını təhsil müəssisələrinə tədbiq etmək üçün Təhsil Nazirliyi ilə yaxından əməkdaşlıq etməlidir.
- Dizayn və İnnovasiya Mərkəzi alternativ təhsil kimi onlayn kurslar, ixtisas artırma treyninqləri və seminarlar yarada bilər . Dizayn və İnnovasiya Mərkəzi fəaliyyəti barəsində informasiyanın hər kəsə açıq olması üçün öz veb-səhifəsini, mobil əlavələrini və sosial şəbəkələrdə rəsmi səhifələrini yaratmalıdır.
- Dizayn və İnnovasiya Mərkəzi Təhsil Nazirliyi və yerli dizayn şirkətləri, xarici dizayn firmaları, eləcə də başqa istehsalat və xidmət şirkətləri arasındakı əlaqələri koordinasiya etməli və dizayn üzrə dördüncü kurs tələbələri üçün ixtisaslarına uyğun iş təcrübələri təşkil etməlidir.
- Bu cür təcrübələr Avropadakı əsas təhsil müəssisələri, məsələn, "Istituto Europeo di Design" üçün səciyyəvidir. Dizayn və İnnovasiya Mərkəzi bu cür təcrübəni öyrənməli və qabaqcıl dizayn mərkəzləri ilə əməkdaşlıq etməlidir.



# Əlavə 1. Dizayn ixtisası üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün tələblər

Dizayn fakültəsinə sənəd vermək üçün abituriyentlər ilk növbədə DİM tərəfindən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təşkil olunan Qəbul Komissiyasından keçməlidirlər. Qəbul Komissiyasının üzvlərinin bir qismi DİM-nın nümayəndə heyəti, bir qismi isə Bakı şəhərində dizayn sahəsi üzrə ali və natamam ali təhsil müəssisələrində fəaliyyət göstərən professorlardan ibarətdir. Abituriyent Qəbul Komissiyasına 5 ədəd A2 formatında yunan və roma heykəllərinin gips portretlərindən ibarət rəsm işləri, 5 ədəd A2 formatında müxtəlif naturmortlardan ibarət rəngkarlıq işləri və 5 ədəd A3 formatında həndəsi fiqurlardan, rəqəmlərdən və şriftlərdən ibarət müxtəlif kompozisiya işləri təqdim etməlidir.

Bu işlər Qəbul Komissiyası tərəfindən müəyyən edilmiş tələblərə cavab verərsə, abituriyent qabiliyyət imtahanına buraxılmaq üçün qeydiyyata düşür. Qeydiyyatdan sonra abituriyent 11 illik məktəb proqramı üzrə Azərbaycan dili, riyaziyyat və xarici dil fənnlərindən attestat imtahanları verir. Bu imtahanlar zamanı hər fənn üzrə 30 sual verilir ki, minimum Azərbaycan dili fənnindən 8 sual, riyaziyyat fənnindən 8 sual, xarici dil fənnindən isə 4 sual cavablandırılmalıdır.

Ümumi 90 sualdan 30-dan çox sual düzgün cavablandırıldıqda abituriyent ödənişli əsaslarla, 40-dan çox sualı düzgün cavablandıran abituriyent isə ödənişsiz əsaslarla təhsil almaq imkanı əldə edir.

Növbəti mərhələ rəsm, rəngkarlıq və kompozisiya fənləri üzrə üç imtahanın verilməsindən ibarətdir. İmtahanlardan keçmək üçün hər fənn üzrə minimum 5 bal olmaqla, ümumilikdə minimum 21 bal toplanmalıdır. Sonda qabiliyyət imtahanının nəticələri ilə attestat imtahanının nəticələri toplanır və abituriyent müsabiqəyə buraxılır. Müsabiqədə ən yüksək nəticə göstərmiş abituriyentlər müraciət etdikləri instituta qəbul edilir.

Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı

# Qeyd

Qısa analitik icmallar 2016-2017-ci illərdə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Mədəniyyət və Yaradıcılıq Proqramı tərəfindən 240 Proqram İştirakçısı ilə birlikdə həyata keçirilən potensialın möhkəmləndirilməsi işinin nəticəsi hesab olunur. Sözügedən iştirakçılar karyera yolunun yarısına çatan, mədəniyyət sahəsində çalışan insanlar, ekspert və mütəxəssislər üçün biznesin idarə edilməsi istiqamətində təşkil olunmuş səkkiz seminarda iştirak etmişdir. İcmallar iştirakçıların öz sahələrində siyasət məsələləri üzrə dəqiq və qərəzsiz məsləhətlərin verilməsində peşəkarların rolunu dərk etməkdə onlara yardımçı olmaq məqsədi daşıyır. Sektordakı problemlərin müəyyən edilməsi, potensial modellərin, imkanların və həll yollarının təmin edilməsi, tənqidi düşüncə tərzinin, faktlara əsaslanan siyasət məsələlərinin təhlilinin və tövsiyələrin hazırlanması prosesinin dəstəklənməsi əsas vəzifələrdən biri idi. İdeyalar Proqramın İştirakçıları tərəfindən işlənib hazırlanmışdır.

*Hesabat Avropa İttifaqının Şərq Tərəfdaşlığı Mədəniyyət və Yaradıcılıq Proqramının dəstəyi ilə tərtib olunur. Sözügedən qisa analitik icmalın məzmunu Avropa ittifaqının rəsmi nöqteyi-nəzərini əks etdirmir. Hesabat sənədində öz əksini tapmış məlumatlara və fikirlərə görə məsuliyyət tamamilə müəllifin üzərinə düşür.*

Proqram Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

BRITISH COUNCIL

soros moldova

NATIONAL CENTRE FOR CULTURE POLAND

GOETHE INSTITUT



# İSTİNADLAR:


- http://www.xaricdetehsil.edu.gov.az
- http://www.science.gov.az
- http://www.stat.gov.az
- http://www.tqdk.gov.az
- http://www.adra.edu.az
- http:// www.beda.org
- http://www.edaa.com
- http://www.iida.org
- http://www.ida.hk
- http://www.christopherscottdesigner.com
- http://www.timolenzen.com
- http://www.designforeurope.eu
- http://www.euipo.europa.eu
- http://www.teach.udemy.com
- http://www.pluralsight.com
- http://www.skillshare.com



Xüsusi təşəkkürlər
Pərvanə Xəlilova
Xatirə Cəfərova